Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Fevral 2024

# Xarici peşə təhsilinin tanınması üçün tədbirlər - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Əgər xarici peşə təhsili haqqında diplomların tanınmasına cavabdeh olan idarə tərəfindən Sizin peşə təhsiliniz müvafiq yerli peşə təhsili ilə eyni dərəcədə tanınmasa və ya natamam tanınsa, bu halda ixtisasartırma təlimlərində iştirak etmək məqsədilə viza verilə bilər.
Bunun üçün diplomların tanınması üzrə səlahiyyətli orqanın yazılı təsdiq sənədini təqdim etməlisiniz. Bu sənəddə hansı təkmilləşdirmə təliminin sizə lazım olması (məs. dil biliklərinin təsdiqi, praktiki fəaliyyətiniz haqqında sübutlar) qeyd olunmalıdır. Səlahiyyətli idarələr haqqında məlumatı məs. aşağıdakı internet səhifəsindən əldə edə bilərsiniz: www.anerkennung-in-deutschland.de.

Aşağıdakı şərtlər altında yaşamaq haqqında icazə həmçinin əmək fəaliyyəti ilə məşğul olmaq hüququnu da verir:
- təhsildən və ya istədiyiniz peşədən asılı olmayaraq həftədə 10 saata qədər əmək fəaliyyəti,
- əgər konkret iş təklifi varsa (yalnız Federal Məşğulluq Agentliyinin razılığına əsasən) təhsildən və istədiyiniz peşədən asılı olaraq vaxt baxımından qeyri-məhdud əmək fəaliyyəti

Viza sahibi olaraq ölkəyə daxil olduğunuzdan dərhal sonra gəlişinizi yaşayış yeri üzrə cavabdeh olan xaricilərlə iş üzrə idarəyə (Ausländerbehörde) bildirməlisiniz. Sizə viza 3 ay üçün veriləcək, ixtisasartırma tədbirlərində iştirak üçün vizanın müddəti ümumilikdə ən çox 18 ay ola bilər.

Sənədlərin **işlənmə müddəti** bir qayda olaraq **4-8 həftə** davam edir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(paposrtun əsli+xarici pasportun şəxsi məlumatlar olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan bütün səhifələrin 1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi və ya Qeyri-Azərbaycan vətəndaşlarına verilən etibarlılıq müddəti bitməyən Azərbaycanda yaşamaq haqqında icazə sənədi *(əsli + 1 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Sənədlərin tanınması üzrə idarənin bildirişi (və ya qismən tanınma haqqında bildiriş). Bu bildiriş ixtisasartırma tədbirlərinin zəruriliyini təyin edir.
- Tərcümeyi-hal
- İxtisaslaşma haqqında sənədlər (diplomlar/şəhadətnamələr, iş yerindən arayışlar, dil sertifikatları və s.) *(əsli + 1 ədəd surəti)*
- Alman dili biliklərinin təsdiqi; bir qayda olaraq tanınan qurumun ən az A2 səviyyəsinə dair dil sertifikatı
- Nəzəri fəaliyyət üçün: dəvət məktubu/hazırlıq işləri ilə məşqul olan idarənin kurs qeydiyyatı haqqında təsdiq məktubu (dil kursu), o cümlədən həmin idarənin dövlət tərəfindən tanınması haqqında məlumat

- Praktiki fəaliyyət üçün: Təlim şirkətinin təsdiqi, iş təsviri, təlim planı və məvacib haqqında məlumat
- Almaniyada yaşayış xərclərinizin maliyyələşməsini sübut edən sənəd. Bu aşağıdakı kimidir:
  - Almaniyadakı dondurulmuş bank hesabınızda 12.324,-- avro olduğunu və hər ay yalnız 1.027,-- avro hesabdan çıxarıla biləcəyini təsdiq edən sənəd

  **və ya**

  - „Almaniyada Yaşamaq haqqında Qanunun“ 66-68 §§-da qeyd olunmuş öhdəlik haqqında rəsmi bəyanatın əsli (6 aydan köhnə olmamaqlaç öhdəlikdə səfərin məgsədi: təkmilləşdirmə təhsili göstərilməlidir, maliyyə imkanı: təsdiq edilməlidir ) *(əsli + 1 ədəd surəti)*

  **və ya**

  - praktiki fəaliyyət zamanı: "GROSS" əmək haqqı ən az 1.118,-- avro (daha az məvacib olduğu təqdirdə əlavə maliyyə vəsaitlərinin  dondurulumuş bank hesabında hesab və ya öhdəlik haqqında bəyannamə ilə təsdiqi)
- **Viza verilərkən əlavə olaraq təqdim olunmalıdır:** 90 gün müddətinə tibbi sığorta haqqında sənəd (sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı) *(əsli + 2 ədəd surəti)*